BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№2 Humanitar elmlər seriyası 2013*

**UOT 94(479.24)**

# AZƏRBAYCANDA XALQ AZADLIQ HƏRƏKATININ SOSİAL-İQTİSADİ VƏ İCTİMAİ-SİYASİ ŞƏRTLƏRİ (XIX ƏSRİN BİRİNCİ YARISI)

**S.A.İSMAYILOVA**

***Bakı Dövlət Universiteti***
***Sevdaismayılova @ rambler.ru***

*Məqalədə XIX əsrin birinci yarısında Şimali Azərbaycanda çarizmin müstəmləkə siyasətinə qarşı xalq azadlıq hərəkatının sosial-iqtisadi və ictimai-siyasi şərtləri açıqlanır. XIX əsrin ilk onilliklərində Şimali Azərbaycanda torpaq sahiblərinin iqtisadi gücünün azaldılması, rus hökumətinə «sadiq olan etibarlı» bəylərin yaradılması, lakin buna baxmayaraq çarizmin əldə silah müstəmləkə zülmünə qarşı döyüşən yerli feodallar içərisində özünə dayaq tapa bilməməsi göstərilir.*

*Hərbi üsullarla həyata keçirilən maliyyə-vergi siyasəti, Azərbaycan ali silkinin böyük bir hissəsinin torpaqlarının müsadirəsi, müsəlman ruhaniliyinin muxtariyyətinə son qoyularaq onların hüquqlarının pozulması XIX yüzilliyin I yarısında Şimali Azərbaycanda xalq azadlıq hərəkatını doğuran sosial-iqtisadi və ictimai-siyasi şərtlər kimi səciyyələndirilir.*

**Açar sözlər:** xalq azadlıq hərəkatı, maliyyə-vergi siyasəti, müsəlman ali silki, torpaqların müsadirəsi, müsəlman ruhaniliyi

1801-ci ildə Qazax, Şəmsəddil və Borçalı sultanlıqları Şərqi Gürcüstanla birlikdə Rusiya imperiyasına qatıldıqdan sonra Azərbaycan xanlıqları Rusiya, İran və Türkiyə arasında kəskin hərbi-siyasi mübarizə meydanına çevrildi. Bu mübarizə Rusiyanın Qafqazdakı xüsusi hərbi səlahiyyətli komandanları tərəfindən iki istiqamətdə aparılırdı: Birincisi, müqavimət göstərən xanlıqların hərbi-müstəmləkəçi metodlarla ləğv edilməsi, ikincisi isə, dövlətlərarası müqavilə bağlamaq yolu ilə xanlıqların daxili muxtariyyət hüquqlarını saxlamaqla Rusiyanın vassalına çevrilməsi. 1805-ci ildən Şimali Azərbaycanda hərbi işğal rejimi – komendant üsul-idarəsi yaradıldı. Bu, 1840-cı ilədək davam etdi. Lakin göstərilən dövrədək burada idarəçilik sahəsində Rusiyanın vahid xətti hələlik yox idi. Çar zabitləri – komendantlar tərəfindən idarə edilən əyalətlər dövründə imperiya özünün hərtərəfli işlənib hazırlanmış siyasətinə malik deyildi. 1830-cu il 13 iyul Ali buyruğu ilə müsəlman ali silkinə güzəştə gedən

rus hakimiyyəti 1841-ci il qanunu ilə torpaqların müsadirəsi haqqında göstəriş verir, XIX əsrin 30-40-cı illərində çarizmin Şimali Azərbaycanda yürütdüyü siyasətdə bir-birinə tamamilə əks olan addımlar atılır. Qafqaz hakimləri sınaqlar və səhvlər üsulunu rəhbər tuturdular (7,23-24).

Yerli əhalinin nə mülkiyyət hüququ, nə də şəxsi təhlükəsizliyi heç bir qanunla tənzimlənmirdi. Baş komandanlar da, rəislər də öz bildikləri kimi hərəkət edirdilər. Rusiya idarəçiliyi Azərbaycan xalqı üçün yabançı idi. Dil və din də xalqa yad idi.

Hakimiyyət yerli ali müsəlman silkinin siyasi və iqtisadi gücünü qırmağa çalışırdı. Xan təliqələrinin tanınması və ya inkar edilməsi komendantdan asılı idi. Müsadirə edilmiş torpaqlar ya xəzinənin mülkiyyətinə keçir, ya da çarizmə sadiq, «etibarlı» bəylərə bağışlanırdı. Çarizmə sədaqətli qulluq şərtilə bu torpaqlar onların idarəsində qala bilərdi. Bəylərə rəncbərlərin paylanması da komendantların ixtiyarında idi. Komendantın əmri ilə xəzinə kəndləri və kəndliləri xüsusi sahibkar kəndləri və kəndlilərinə və yaxud da əksinə çevrilə bilərdilər.

Komendant üsul-idarəsində əsas amil özbaşınalıq, rüşvətxorluq, haqsızlıq idi. Komendantlar hətta hakimiyyəti də aldatmaqdan çəkinmir, xəzinəyə ötürüləsi əmlakı özləri mənimsəyirdilər.

XIX yüzilin 20-ci illərinin sonu – 30-cu illərinin əvvəllərində Cənubi Qafqazda I Nikolayın göstərişi ilə təftiş aparmış senatorlar Meçnikov və Kutaysov yazırdılar ki, yüz min sakinin hüququ, namusu, əmlakı komendantın hökmündən asılıdır (9, 10).

K.A.Zubarevin 1830-cu ildə gen.-adyutant Strekalova ünvanladığı yazıdan aydın olur ki, Qarabağda mahal naibləri sakinləri sıxışdırır, iğtişaş yaradırlar. Vərəndə mahal naibi prap. məlik Xudadad başqalarını da ötüb. Əxlaqsız və sərxoş bir davranışla o öz hay-küylü və sərxoş xidmətçiləri ilə kəndlərdən keçərək əsassız olaraq sakinləri cəzalandırır. Onun mirzəsi və xidmətində olanları da belə edirlər. Qeyri-qanuni olaraq xəzinə kəndlilərindən hər kotan və cütdən dörddə bir buğda götürür, pul cərimələri və rüşvət alır (6, VII c., 464).

İşğal dövründə çarizmin Şimali Azərbaycanda torpaq siyasətinin əsasını xəzinə mülklərini artırmaq, yerli feoddalları çarizmə sədaqətli qulluq edən bir zümrəyə çevirmək təşkil edirdi. Rus idarəçilik sisteminə dair yaradılmış layihələrin ümumi cəhəti ondan ibarət idi ki, hüquq, məhkəmə, idarəçilik sahələrində bütün yerli xüsusiyyətlər ləğv edilir, mərkəzləşdirilmiş idarəçilik sistemi yaradılması nəzərdə tutulurdu. Çarizm diyarda «təbii rus zadəganlarından» ibarət bir dayaq yaratmaq fikrində idi (9, 232-259, 301-317).

Xanlıqlar dövründə mövcud olmuş vergi sistemi əsasən qorunub saxlanmışdı. Müxtəlif vergi və mükəlləfiyyətlər kəndlilərin vəziyyətini daha da ağırlaşdırırdı.

Rus rəisləri kəndli təsərrüfatının yönümünü nəzərə almadan qanunsuz vergilər yığırdılar. 1834-cü ildə Şirvan komendantı Xançoban və Rutbar mahalının taxıl əkməyən maldar əhalisi üzərinə malcəhət taxıl vergisi qoymuş, 3

ildə qanunsuz olaraq 855 tağar buğda, 475 tağar arpa yığmışdı. Yalnız sakinlərin güclü narazılığından sonra 1838-ci ildə artıq yığılmış taxılın qaytarılmaması şərti ilə bu verginin ödənişi dayandırılmışdı (2, 640).

Xanlıqlar dövründə son dərəcə mürəkkəb vergi sistemi mövcud idi, lakin həmin sistem ciddi şəkildə gözlənilirdi. Çar hökuməti isə həmin sistemi saxlayaraq, ona bir qarmaqarışıqlıq gətirmişdi və həmin sistemi son dərəcə qaba müstəmləkə əsarəti ilə daha da ağırlaşdırmışdı (8, 60-65).

Tarixçi alim M.Abdullayevin göstərdiyi kimi, çarizmin Azərbaycanın Rusiya tərəfindən işğal edilməsi dövründə formalaşan aqrar siyasətinin mərkəzində dayanan yerli feodallara münasibət məsələsi, onların sosial-iqtisadi hüquqlarının nizamlanması üzrə bütün hökumət tədbirləri ali zümrənin tərkibindəki bu qruplaşma və meylləri bəzi hallarda qismən, bir çox hallarda isə tamamilə nəzərə almaqla həyata keçirilirdi (1, 67).

Müəllifin göstərdiyi kimi, inzibati orqanlar Ali manifestin müəyyən etdiyi qaydalara yarımçıq əməl edir, qəsdən onu pozurdular. Diyarın “sakitliyi” üçün təhlükəli olan bəylərin geri qayıtmasına qətiyyən yol verməməyə çalışırdılar. Irana qaçan Qazax ağalarının hələ 1814-cü ilin aprelində geri qayıtmaq xahişinə baxılmamışdı. Digər tərəfdən isə sürgündən, həbsdən və xaricdən qaytarılmasına icazə verilən feodalların keçmiş torpaqları üzərindəki hüquqları heç də həmişə Ali manifestdə göstərilən “qabaqki vəziyyətində” deyil, çarizmin təhrifedici mülahizələrinə əsasən qaytarılırdı. Belə ki, Quba əyalətindən xəyanət edənlər sırasında Həştərxana sürgünə göndərilən, ancaq günah işlətdiyi sübuta yetmədiyi üçün 1820-ci ildə geri qaytarılan Paşa bəyin müsadirə edilmiş 4 kəndindən yalnız 2-si onun sahibliyinə deyil, “idarəsinə” qaytarılmışdı (1,71).

Azərbaycan feodallarının bir hissəsi, Qazax, Şəmşəddil, Borçalı distansiyasının ağaları, Quba əyalətinin tiyuldar bəyləri artıq torpağın sahibi və mülkiyyətçisi deyil, yalnız “idarəçisi” sayılırdılar (6, IV c., 666-670).

“İdarəçilik” çarizmə sədaqətli olması şübhə doğuran, xaricə və dağlara qaçan feodalların övladlarının da torpaq üzərində nəsli sahiblik hüququnu asanlıqla ləğv etməyə imkan verirdi.

Saxta “idarəetmə” məsələsini ortaya atan hökumət bundan bəylərə qarşı başlıca iqtisadi təzyiq vasitəsi kimi istifadə edirdi.

1817-ci ildə Quba komendantının verdiyi “Sərəncam” kəndlilərin , feodalların xeyrinə ödəməli olduğu mükəlləfiyyətləri nizama salırdı. Artıq Quba əyalətinin bəyləri mülk sahibi yox, onların “idarəedicisi” hesab edilirdi. Buna görə də əhali ona bəzi mükəlləfiyyətlər ödəyirdi (4, 144).

1818-ci il “Əsasnaməsi”nə görə ağalar mülkiyyətçi deyil, yalnız idarəçi idilər. Torpaqları üzərində mülkiyyət hüququ yox idi. Onlar yalnız həmin torpaqlarda salınmış bağlar, tikilmiş evlər və dəyirmanlar üzərində mülkiyyət hüququna malik idilər.

A.Yermolov yazırdı: “Bu, hökumətin onlar və hətta onların qohumlarının kəndi idarə etmək hüququndan məhrum etmək niyyətində olmadığının sübutu

rolunu oynaya bilər" (6, VI c., I h., 696-698).

1818-ci il "Əsasnaməsi" üzrə ağalar müəyyən vergi və kəndlilər üzərində polis nəzarəti həyata keçirməli idi. Buna əsaslanan çar hökumət orqanları tiyul-kənd sahibkarlarını idarəçi hesab edir və onların yeni hakimiyyətə münasibətini nəzərə almaqla ya onların kəndini əlindən alır başqasına bağışlayır, ya da onların əlində saxlayırdı.

Xan hakimiyyətinə son qoyulmuş Şəki, Şirvan və Qarabağ əyalətlərində yerli feodalların torpaq hüquqlarına zərbə vurmaq üçün bir sıra tutarlı işlər görüldü. 1820-ci ildən Yermolovun göstərişi ilə müsəlman əyalətləri bəylərinin kənd və torpaqlar üzərində sahiblik və "idarə" hüquqlarını təsdiq edən xan təliqələri toplanıldı. Hər üç vilayətdə şəhər məhkəmələrində təliqələrin əsl mahiyyəti təhrif edilir, torpaq sahibliyi hüququ "idarəçilik"lə əvəz olunurdu. Bəy və ağaların torpaq hüququnun əlindən alınması üçün "hökumətə xəyanət", "düşmənlə Rusiyanın mənafeyinə ziyan vuran əlaqənin saxlanması", "dövlət məmurlarına itaətsizlik" kifayət edirdi.

1824-cü ildə general Yermolovun göstərişi ilə yaradılmış komissiya bütün bəy familiyalarını saf-çürük etməli və qədim, yerli bəy nəsillərini, bəy adını Şeyx Əli xandan alanlardan ayırmalı idi.

Erməni vilayətində keçmiş sərdarın vəziri Mirzə İsmayılın dəqiq siyahıyaalmalarına əsasən xan xəzinəsinin bütün gəliri və mülki aşkara çıxarıldı (8, 151).

Yenə Yermolovun göstərişi ilə Şəki və Şirvan xanlıqlarında bütün bəy familiyaları məlum edildi. Onlar haqqında məlumatlar ya dəqiqliyi şübhə doğurmayan sənədlərə, bunlar olmadıqda isə hər bir nəsil haqqında xüsusi etimad göstərilən 12 bəyin şəhadətinə əsaslanırdı. Azərbaycan feodallarının böyük bir hissəsinin öz torpaqlarının sahibi və mülkiyyətçisi deyil, yalnız xəzinə (dövlət) kəndlilərinin idarəçisi sayılmaları onları 1826-cı ilin iyununda başlanan "ümumi müsəlman üsyanı"nın fəal iştirakçısı etdi. 13 iyul 1830-cu il Ali Qanunu ilə II Rusiya-İran müharibəsi dövründə antihökumət çıxışlarda iştirakına görə cəzalandırılan bəylərin əfvi və müsadirə edilmiş torpaqların qismən qaytarılması bir növ feodallarla yaxınlaşma xətti olsa da, XIX əsrin 30-cu illərində Rusiya Azərbaycan bəylərinin silki hüquq və imtiyazlarını rəsmi olaraq tanımadığı üçün onlar Rusiyanın müstəmləkə siyasətini həyata keçirməkdə sosial dayağı ola bilməzdilər. Odur ki, Azərbaycan bəyləri XIX əsrin 30-cu illərində Azərbaycanda baş verən azadlıq hərəkatında fəal iştirak edirdilər (3,83).

Çarizm Azərbaycan ruhaniliyinə münasibətdə də ağa və bəylərə olan siyasətini davam etdirdi. Əsas münasibət müsəlman, əsasən şiə (Şimali Azərbaycanda əhalinin böyük qismi şiə məzhəbli idi) ruhaniliyinin xanlıqlar dövründə malik olduqları muxtar idarəçiliyinə son qoymaqdan, onların İran və Türkiyədəki dini mərkəzlərdə ruhani təhsili almalarını qadağan etməkdən ibarət oldu. İşğal dövründə müsəlman ruhaniliyinin sayını, onların xeyrinə yığılan vergiləri azaltmaq, şəriət məhkəmələrinin funksiyalarını məhdudlaşdırmaq və müstəmləkə əleyhinə çıxışlarda iştirak edən ruhaniləri amansız cəzalandırmaq tədbirləri həyata keçirilirdi. Xanlıqlarda ruhanilər xanlıq divanxanasında mü-

hüm yer tuturdular. Qazılər, əmr-məruflar sırf inzibati funksiyaları yerinə yetirən dövlət məmurları kimi çıxış edirdilər. Dövlət idarəçiliyində isə ali rütbəli ruhanilər çıxış edirdilər. Aşağı təbəqədən olan ruhanilər isə dini işlərlə məşgul olurdular. Azərbaycan ruhaniliyinə münasibətdə həyata keçiriləcək siyasəti müəyyənləşdirməkdən ötrü çarizm ruhaniliyin sosial-iqtisadi və siyasi-hüquqi vəziyyətini öyrənməli idi (10, 107).

Yermolovun 1824-cü ilin martında tərtib etdiyi "Quba qazısına göstəriş" – müsəlman ruhaniliyinin sosial-siyasi, hüquqi statusunu müəyyənləşdirən bir sənəddir.

Sənəddə əyalət ruhanilərinin sayı və ünvanlarının müəyyənləşdirilməsi, din xadimlərinin davranışı və əxlaqına ciddi fikir verilməsi, moizələrində hökumət əleyhinə, başqa dindən olanlara qarşı nifrət hissi aşılayan ruhanilərin hərbi məhkəməyə verilmələri əmr edilirdi (9, 309). Quba əyalətinin komendantı K.K. fon Krabbeyə tapşırılırdı ki, ruhanilərin əhalidən vergi ödəmək barədə tələbləri rədd edilsin, hökumət tərəfindən ştata salınmayan ruhanilərin üzərinə vergi və mükəlləfiyyətlər qoyulsun.

"Göstəriş"in əvvəlində bildirilirdi ki, sünnilik əyalətdə aparıcı məzhəbdir, ibadətlə məşğul olanların hamısı hökumət tərəfindən təyin olunan qazıya tabedir, mollalar da qazı tərəfindən təyin edilir. Əfəndi rütbəsi qanunun mənimsənilməsi sınağından çıxanlara verilirdi. Sınaq qazı və ruhani alimlərin iştirakı ilə keçirilirdi. Adı qazanana qazının və sınaqda iştirak edən üləmaların imzaları olan şəhadətnamə verilirdi. Qazı əfəndi və mollaların əqli və əxlaqi cəhətdən daşıdıqları ada layiqli olmalarına cavabdeh idi. Yoxsa onlar xalqa xeyirli öyüd-nəsihət verə bilməzdilər. Qazı etibarsızlıqda və nalayiq davranışda təqsirli olanları vəzifədən azad edirdi.

"Göstəriş"də ruhani adlarının irsən, nəsildən-nəslə keçməsi qadağan olunurdu, yalnız layiqlilərə dini ad verilməsi düzgün sayılırdı. Əslində, islam qaydalarına görə də dini adlar irsən keçmirdi. Əyalətdə din xadimlərinin sayı belə müəyyənləşdirilirdi: kəndlərdə 50-60 həyətə 1 məscid olmalı idi; 10-dan az həyəti olan kəndlərdə isə məscid salınmırdı. Şəriət məhkəmələrinə rəhbərlik qazıya həvalə olunurdu. Onun qərarları şiə məzhəbli müsəlmanlar üçün də məcburi idi (9,310).

Yermolov müsəlman ruhanilərini iqtisadi cəhətdən də zəiflətməyə çalışırdı. "Quba qazısına göstəriş"də ruhanilərin xeyrinə toplanan zəkatın məcburi olduğu, xümsün isə könüllü olduğu göstərilirdi. Beləliklə, işğal dövründə Azərbaycan ruhanilərinin də hüquqları məhdudlaşdırıldı, əsasən də bu hüquqlardan məhrum edildilər. Şəriət məhkəmələri saxlanılsa da, onların təsir dairəsi daraldılmışdı.

Çarizm müsəlman ruhaniliyini əhaliyə mənəvi-siyasi təsir göstərməkdən məhrum etmiş, onların vəqf mülkiyyətləri müsadirə olunmuş, ruhanilərin xeyrinə vergi və ianələrin yığılması məhdudlaşdırılmışdı. 1826-cı il üsyanında iştirak edən ruhanilərdən bəzilərinə, elə din xadimləri olduqlarına görə ölüm cəzası verilmişdi (5, 260).

Hərbi üsullarla həyata keçirilən maliyyə-vergi siyasəti, yerli feodalların Rusiyaya düşməncəsinə yanaşan böyük bir hissəsinin torpaqlarının müsadirəsi, onların iqtisadi və siyasi gücünün qırılması, carizmin köcürmə siyasəti, müsəlman ruhaniliyinin muxtariyyətinə son qoyulub hüquqlarının pozulması Azərbaycan xalqının XIX yüzilin I yarısında Rusiyanın müstəmləkə siyasətinə qarşı apardığı xalq azadlıq hərəkatının sosial-iqtisadi, ictimai-siyasi şərtlərini təşkil etmişdi.

## ƏDƏBİYYAT


1. Abdullayev M. Xanlıqlar və rus müstəmləkəçiliyi dövründə Şimali Azərbaycanda aqrar münasibətlər (XIX əsrin 40 –cı illərinə qədər). Bakı: Adiloğlu, 2005, 232 s.
2. Azərbaycan tarixi (Uzaq keçmişdən 1970-ci illərə qədər) / S.Əliyarlının red. ilə. Bakı: Azərbaycan, 1996, 872 s.
3. Azərbaycan tarixi. Ali məktəblər üçün mühazirələr kursu (XIX-XXI əsrin əvvəli). Bakı: BDU, 2010, 544 s.
4. Gülmalıyev M.M. XVIII əsrin son rübü – XIX əsrin birinci yarısında Azərbaycan kəndinin sosial-siyasi strukturu. Bakı: Elm, 1989, 280 s.
5. Hüseynli R. Azərbaycan ruhaniliyi (xanlıqlar çağından Sovet işğalınadək olan dövrdə). Bakı: Kür, 2002, 266 c.
6. АКАК (Акты, собранные Кавказской Археографической Комиссией). т. IV, Тифлис, 1870, 1015 s; т.VI, I h. Тифлис, 1874, 941 s; т.VI, II h. Тифлис, 1875,950 s; т.VII , Тифлис: Типография главного управления наместника Кавказского, 1878, 994 s.
7. Ибрагимова Н. Система управления Российского царизма в Северном Азербайджане в начале XIX столетия (до 1840-х годов). Автореферат дис. канд.ист.наук, Баку, 2008, 27 с.
8. Иваненко В.Н. Гражданское управление Закавказьем от присоединения Грузии до наместничества великого князя Михаила Николаевича Тифлис, 1901, 525 s.
9. Колониальная политика российского царизма в Азербайджане в 20-60-х годах XIX века. I h. М.-Л.: АН СССР, 1936, 479 s.
10. Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI - начале XIX вв. Л.: Изд.Ленинградский Государственный Университет, 1949, 365 s.


## СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКИЕ И ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКИЕ ПРЕДПОСЫЛКИ НАРОДНО-ОСВОБОДИТЕЛЬНОГО ДВИЖЕНИЯ В СЕВЕРНОМ АЗЕРБАЙДЖАНЕ (ПЕРВАЯ ПОЛОВИНА XIX ВЕКА)


**С.А.ИСМАЙЛОВА**


### РЕЗЮМЕ


В статье раскрывается социально-экономические и общественно-политические предпосылки народно-освободительного движения против колониальной политики царизма в Северном Азербайджане в первой половине XIX века. Рассматривается вопрос ограничения экономической мощи землевладельцев в Северном Азербайджане в первых десятилетиях XIX века, формирование «благонадежных беков» русскому самодержавию. На основе фактов доказывается, что несмотря на это царизм не нашел опору среди местных вооруженных феодалов воюющих против колониального ига.

Рассматривается проведенной в жизнь военными методами финансово-налоговой политики царизма, конфискация земель большой части высшего мусульманского

сословия Азербайджана, попирание прав и ликвидация автономии мусульманского духовенства, характеризуется социально-экономические и общественно-политические предпосылки народно-освободительного движения в Северном Азербайджане в первой половине XIX века.

**Ключевые слова:** народно-освободительное движение, финансово-налоговая политика, мусульманское высшее сословие, конфискация земель, мусульманское духовенство

## SOCIO-ECONOMIC AND PUBLIC–POLITICAL PRECONDITIONS OF THE EMANCIPATION MOVEMENTS IN NORTHERN AZERBAIJAN (AT THE FIRST HALF OF THE XIX CENTURY)

**S.A.ISMAYILOVA**

### SUMMARY

The article studies the social-economic and public-political preconditions of emancipation movements against the colonial policy of tsarism in Northern Azerbaijan at the first half of the XIX century. Limitation of economic power of landlords in Northern Azerbaijan in the first decades of the XIX century is analyzed. Formation of “the trustworthy bays” for the Russian autocracy is examined.

It is noted that, in spite of all these, tsarism could find no support among the local armored feudals who were struggling against the colonial rule.

Financial-tax policy of tsarism, realised by military methods, confiscation of the lands from higher Muslim clergy of Azerbaijan, violation of rights and liquidation of the Muslim clergy are characterized as preconditions for the people’s emancipation movements in Northern Azerbaijan at the first half of the XIX century.

**Key words:** emancipation movements, financial-tax policy, higher Muslim clergy, confiscation, land, Muslim clergy